# MƏTBUAT HAQQINDA SİTATLAR

Mətbuat demokratiyanı dərinləşdirən, siyasi inkişafa təkan verən qüdrətli vasitədir.

***

Biz demokratiya yolu ilə gedərək, söz azadlığını təmin edərək, mətbuat azadlığını təmin edərək bu yolda nöqsanları ardıcıl surətdə aradan qaldırmalıyıq və qaldıracağıq, mətbuata, söz azadlığına bütün imkanları yaradacağıq.

***

Azərbaycanda söz azadlığı, mətbuat azadlığı təmin olunub və bu, dövlət siyasətimizin əsas istiqamətlərindəndir.

***

Azad mətbuat – demokratik, hüquqi dövlətin mövcudluğunun göstəricisidir.

***

Mətbuat cəmiyyətin güzgüsüdür. Bu güzgüdə biz özümüzü necə görürüksə, cəmiyyət də özünü elə tanıyır.

***

Azərbaycan mətbuatı xalqın milli-mənəvi dəyərlərini, tarixini, dilini yaşadan, inkişaf etdirən əsas vasitələrdən biridir.

**Heydər Əliyev,**
**Ümummilli Lider**

Mətbuat demokratiyanı dərinləşdirən, siyasi inkişafa təkan verən qüdrətli vasitədir. Bu gen əsas vəzifə onun geniş imkanlarından milli dövlət quruculuğunda, demokratik dəyərlərin bərqərar edilməsində, sivil vətəndaş cəmiyyətinin formalaşmasında, islahatların həyata keçirilməsində, insanların mənəvi saflaşmasında səmərəli istifadə etməkdən ibarətdir. Mətbuat həyatın güzgüsü, həqiqətin carçısı olmalıdır, insanları yüksək ideyalar uğrunda mübarizəyə səsləməli və səfərbər etməlidir.

***

Mən öz işimdə mətbuata həmişə dəstək verməyə çalışıram. Bu gün də bu siyasəti aparıram. Hesab edirəm ki, qəbul edilmiş qərarlar bunun əyani sübutudur. Gələcək fəaliyyətimdə də çalışacağam ki, Azərbaycanda fəaliyyət göstərən mətbuat orqanlarına öz köməyimi, dəstəyimi verim. Mən əminəm ki, normal, hüquqi, demokratik dövlətin qurulması işinə KİV-in çox böyük əhəmiyyəti var və bu əhəmiyyət getdikcə artır.

***

Söz azadlığı, demokratiyanın inkişafı, hüquqi dövlətin qurulması Azərbaycanda çox vacib olan məsələlərdir. Mən hesab edirəm ki, bu sahədə ölkəmiz çox böyük və uğurlu yol keçmişdir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

Son illər, müstəqillik illərində digər sahələrdə olduğu kimi, jurnalistikada da böyük dəyişikliklər baş verib. Azad, peşəkar mətbuat olmadan əsl demokratik dövlətin qurulması mümkün deyil. Söz və mətbuat azadlığı, ən kəskin məsələlərə dair diskussiyalar, cəmiyyəti narahat edən problemlərin obyektiv işıqlandırılması - bütün bu sahələrdə medianın rolu əvəzsizdir. Hər bir mətbuat qurumu ilk növbədə obyektiv və qərəzsiz olmalıdır, xalqının və dövlətinin maraqlarını hər şeydən üstün tutmalıdır və cəmiyyətdə mərhəmət, ədalət prinsiplərini təbliğ etməlidir.

**Əliyeva Mehriban,**
**Azərbaycan Respublikasının Birinci vitse-prezidehti**

Mətbuat azadlığı insan azadlığının əsas sütunudur, çünki o, əqlin, təfəkkürün əsas qüvvəsidir.

***

Qəzet millətin danışan dilidir. Bir millətin ki, qəzeti yoxdur, elə bil ki, o millətin dili yoxdur.

***

Mətbuat bir müəllim vəzifəsini yerinə yetirir. O, xalqın tərbiyəçisidir.

***

Mətbuat xalqın milli nümayəndəliyini öhdəsinə götürən, onun görüşlərini ifadə edib yayan ictimai nəzarətçidir.

***

Mətbuat o zaman öz vəzifəsini yerinə yetirə bilər ki, öz işində tam azad olsun.

***

Hər ölkənin mədəniyyətinin inkişafı onun ədəbiyyatının inkişafı ilə bağlı olduğu kimi, hər millətin siyasi vəziyyəti də onun mətbuat azadlığı ilə bağlıdır.

**Məhəmməd Əmin Rəsulzadə,**
**ictimai-siyasi və dövlət xadimi**

Qəzet bir çıraqdır ki, əyri və düz yolu millətə göstərir, onu sərvət və sahman yoluna yönəldir.

***

Qəzet inanılmış bir qoruyucudur ki, hökumətin iş və hərəkətlərini görür, onların səhv və xətalarını açıb göstərir, milləti hökumətin səhv və xəyanətlərindən xəbərdar edir.

***

Hər bir vilayətin qəzeti gərək o vilayətin aynası olsun. Yəni o vilayətin sakinləri elədiyi işlər, onlara lazım olan şeylər, xülasə onların hər bir dərdi və xahişi o qəzetdə çap olunsun ki, o qəzetə baxan, xalqı aynada görən kimi görsün.

***

Maarifdən, elmdən məhrum bir xalq işıqdan məhrumdur.

***

Qəzet bir çıraqdır ki, əyri və düz yolu millətə göstərir, onu sərvət və sahman yoluna yönəldir.

***

Mətbuat müəyyən cəmiyyətə ancaq o zaman yaxşı təsir göstərə bilər ki, müzakirəyə qoyulan və bütün cəmiyyətə aid olan məsələyə tamamilə qərəzsiz yanaşsın və qəzetlərdə irəli sürülən fikirlər cəmiyyətin kütləsi üçün aydın olsun.

**Nəriman Nərimanov,**
**yazıçı, publisist, ictimai-siyasi dövlət xadimi**

Necə ki, bir bulağın suyunun altına nə qədər bərk daş qoysan, bir neçə ildən sonra su tökülməkdən o bərk daş mürur ilə əriyib deşilir. Habelə söz də, ələlxüsus, doğru söz mürur ilə qanmazın başını deşib onun beyninə əsər edər.

***

Heç olmaz ki, doğru söz yerdə qalsın.

**Həsən bəy Zərdabi,**
**Azərbaycan milli mətbuatının banisi**

Neçə müddətdir ki, Həsən bəyi zar,
Hüsnü-tədbir ilə o fəxri-kibar,
Öz qədimi misalımızda haman,
Qəzetə çapını edib ünvan.
Ġzn hasil qılıbdır dövlətdən,
Biz gərək dəm vuraq səadətdən
Özünə gərçi yoxdur faidəsi,
Leyk var, xəlqə feyzi-zaidəsi.m

**Seyid Əzim Şirvani,**
**şair, müəllim**

"Əkinçi" cəmiyyətin bir gözüdürsə, "Həyat" qəzeti onun ikinci gözüdür".

**Əli bəy Hüseynzadə,**
**yazıçı, jurnalist, filosof, müəllim**

Mətbuat bir məktəbdir. Bu məktəbdə xalq tərbiyə alır. Yaxşı mətbuat xalqın düşüncəsini oyadır, gözünü açır, onu gerilikdən qurtarır. Pis mətbuat isə xalqı çaşdırır, cəhalətə sürükləyir. Ona görə də, mətbuat sahəsində çalışan hər kəs böyük məsuliyyət daşıyır. Qələm sahibinin sözü silahdır – bu silahı ya xalqın yolunda, ya da xalqın əleyhinə işlətmək olar.

**Cəlil Məmmədquluzadə,**
**yazıçı, dramaturq, ictimai xadim**

Mətbuat – millətin aynasıdır. Əgər bu ayna təmiz olarsa, millətin eyiblərini göstərər, onları düzəltməyə kömək edər. Əgər ayna bulanıqdırsa, nə insan öz eybini görər, nə də onu düzəldə bilər. Qəzet – xalqın dili, qulağı, gözü olmalıdır."

***

Əgər bir millətdə mətbuat susursa, orada zülm danışır. Əgər mətbuat danışırsa, orada azadlıq nəfəs alır.

***

Mətbuat bir çıraqdır, millətə nur saçandır,
Ona qiymət verənlər millətə baş tacıdır.
Qəzet oxuyan insan qeybətə baxmaz,
O, haqqı tanıyar, nahaqqa əl çalmaz.

**Mirzə Ələkbər Sabir,**
**şair, ictimai xadim**

"Əkinçi" mənim ana dili müəllimimdir.

**Nəcəf bəy Vəzirov,**
**yazıçı, dramaturq**

Bizim indiki mətbuatımız, xüsusilə o mətbuata rəhbərlik edən "Kommunist" qəzeti iki dövrün keçidində, iki həyatın, iki dünyanın ortasında çalışır. Son inqilablar dövlət quruluşunu dəyişmiş, əski quruluşu tam yeni bir quruluş ilə əvəz etmiş, bütün əski ictimai münaisbətləri başqalaşdırmış, bunun üzərinə bütün siyasi, mədəni normalar alt-üst olmuş, tərz-təfəkkür məktəblər, nəzəriyyələr, fəlsəfələr, bir sözlə bütün yaşayış yenidən oynamış, öz cığırını itirmişdir.

Bir tərəfdə əski həyat, digər tərəfdə isə yeni bir həyat üzbəüz durmuşlardır ki, bunların da ortasında bizim indiki mətbuatımız durmuşdur.

O, yalnız yaradıcılıqla iktifa edəməz, o gələcək üçün təsəvvür etdikləri yeni binaları tikmək üçün əski həyatın bütün cəhalətini, qaranlığını pozmalı və onun hamvarlanmış torpaqlarında öz yeni binalarını timəlidir. O, bir tərəfdən pozmalı, digər tərəfdən yaratmalıdır.

**Cəfər Cabbarlı,**
**dramaturq, şair, Əməkdar incəsənət xadimi**

Hürriyyəti-kəlamın, yaxud azadi-mətbuatın ümumxalq üçün nəfi bundan ibarətdir ki, bunların sayəsində ümum əhalinin və ya məlum bir camaatın mübtəla olduğu dərdini şərh edib müalicəsi üçün tədbirlər axtarmaq mümkündür.

**Üzeyir Hacıbəyli,**
**bəstəkar, Xalq artisti**

Bir millət özünü tanımayınca hüququnu düşünməz. Tanımaq üçün də milli dil, milli məktəb, milli mətbuat, milli ədəbiyyat lazımdır.

***

Xalqımızın mənəviyyat, mədəniyyət pasportu olan kitablarımızın tarixi ilə hər birimiz fəxr edə bilərik.

**Sabir Rüstəmxanlı,**
**Xalq şairi**

Mətbuatın, ümumən, jurnalistikanın böyük ölçüdə əsas missiyası mənsub olduğu cəmiyyət, dövlət və xalq naminə fəaliyyət göstərməkdir.

**Rəşad Məcid,**
**yazıçı, Azərbaycan Mətbuat Şurasının sədri**